01 (1358) 9 - 15 yanvar 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "İQTİSADİ SAHƏDƏ DAYANIQLI İNKİŞAFA NAİL OLA BİLMİŞİK VƏ ƏMİNƏM Kİ, GƏLƏN İLLƏRDƏ BU DİNAMİKA SAXLANILACAQ"



"Əgər dünya iqtisadiyyatının artım templərinə və inkişaf etmiş ölkələrin inkişafına, yaxud da tənəzzülə nəzər salsaq görərik ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edib. Əlbəttə ki, bunun təməlində düşünülmüş siyasət dayanır". Bu sözləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində söyləyib.

Bu göstəricilərin, sadəcə olaraq, keçən ilin məhsulu olmadığını vurğulayan dövlətimizin başçısı deyib: *"Uzun illər aparılan iqtisadi islahatlar, şəffaflıq, inhisarçılığa qarşı mübarizə, investisiyaların cəlb edilməsi, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində biz beynəlxalq aparıcı reytinq agentliklərinin Azərbaycana olan münasibətində müsbət dəyişiklik görürük. Yəni, onlar da reallıqları inkar edə bilməzlər. Halbuki mən hesab edirəm ki, bizim beynəlxalq reytinqimiz indikindən daha yüksək səviyyəyə layiqdir və müəyyən səbəblər üzündən hələ ki, aparıcı reytinq agentlikləri daha da təvazökar yanaşmanı sərgiləyirlər. Yəni, bütün bunlar onu deməyə əsas verir ki, biz iqtisadi sahədə dayanıqlı inkişafa nail ola bilmişik və əminəm ki, bu il və gələn illərdə bu dinamika saxlanılacaq".*

## "APARICI QƏRB ÖLKƏLƏRİNDƏ SİYASİ VƏ MƏNƏVİ BÖHRAN GÖZ QABAĞINDADIR"

"İndi heç kimə sirr deyil ki, yeni dünya nizamı formalaşdırılır. Hesab edirəm ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq". Bu fikirləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirib.

İkinci Dünya müharibəsindən sonra yaranmış sistemin artıq öz potensialını itirdiyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, bunu bir çox yerlərdə gedən proseslər, münaqişələr, müharibələr və sair hadisələr göstərir. *"Eyni zamanda, aparıcı Qərb ölkələrində siyasi və mənəvi böhran da göz qabağındadır. Yəni, bu gün Qərbin üzləşdiyi vəziyyəti ən çox tənqid edən Qərbin aparıcı ölkəsinin seçilmiş prezidentidir, haqlı olaraq tənqid edir. Çünki bu sistem artıq tükənib"*, - deyə Azərbaycan Prezidenti əlavə edib.

## "ERMƏNİSTAN FAKTİKİ OLARAQ BÖLGƏ ÜÇÜN BİR TƏHDİD MƏNBƏYİDİR"

"Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz bunu istəmirik. Biz sülh istəyirik". Bu sözləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində söyləyib.

Ermənistanın faktiki olaraq bölgə üçün bir təhdid mənbəyi olduğuna diqqət çəkən dövlətimizin başçısı qeyd edib ki, müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar.

Ölkəmizin faşist dövlətlə qonşu olduğunu və faşizm təhlükəsinin sovuşmadığını xatırladan Prezident bildirib: *"Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur".*

## "FRANSIZ SİYASİ SƏHNƏSİNDƏ KONSENSUS YALNIZ AZƏRBAYCANOFOBİYA ZƏMİNİNDƏ OLUR"

"Əgər fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminində olur. Təəssüf ki, təkcə hazırkı hakimiyyət deyil, hakimiyyətə iddialı olanlar da bir-birindən o qədər də fərqlənmirlər".

Bu fikirləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirib. Hələ Rusiya sülhməramlılarının olduğu dövrdə Qarabağa qanunsuz səfərləri xatırladan dövlətimizin başçısı deyib: *"Axı, onlar Fransanın indiki prezidentinin rəqibləri idi, Paris meri də, yeri gəlmişkən, o, seçkilərdə namizədliyini irəli sürmüşdü. Parisin daxil olduğu regionun qubernatoru da seçkilərdə prezident Makronun rəqibi idi və bu yaxınlarda qısa müddətdə Baş nazir vəzifəsini tutmuş cənab Barnye də bu məsələdə fərqlənir".* Prezident İlham Əliyev, həmçinin vurğulayıb ki, islamofobiya və prinsipcə ksenofobiya fransız siyasi sinfinin fərqli cəhətləridir.

## "İRANDAKI SƏFİRLİYİMİZƏ QARŞI TERROR AKTI TƏŞKİL OLUNMUŞ TERROR AKTI İDİ"

"...Daha sonra səfirliyimizə qarşı terror aktı törədildi və bu, təşkil olunmuş terror aktı idi". Bunu deməyə əsas verən bir çox amillər var idi. Bu sözləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib.

*"Birincisi, təxminən 40 dəqiqə ərzində bir dənə də polis maşını oraya yaxınlaşmamışdı. Halbuki bu, paytaxtın mərkəzində idi. Terroru törədən şəxs sonra dərhal, ertəsi gün psixi xəstə elan edildi. Halbuki istənilən tibbi ekspertiza bir neçə gün davam edir. Həmin bu şəxs elə terroru törətdiyi gün mətbuata çıxıb və müsahibə verir. O hadisədən iki il keçir. Bu günə qədər o insan ona verilən hökmə məruz qalmayıb. Bütün bunlar göstərir ki, bu, təşkil olunmuşdu"*, - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

## "İQTİSADİ İMKANLAR ARTDIQCA BİZ SOSİAL MƏSƏLƏLƏRİN HƏLLİNƏ DƏ DAİM DİQQƏT GÖSTƏRƏCƏYİK"

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycanda sosial sahədə atılan addımlardan danışıb.

Bu il yanvarın birindən minimum əməkhaqqının və pensiyanın artdığını vurğulayan dövlətimizin başçısı deyib: "Bu qədər böyük sərmayə qoyan və Qarabağın bərpası kimi qarşımızda bu qədər böyük problemi olan ölkədə bu sahəyə də bu diqqəti yetirmək, əlbəttə ki, bizim siyasətimizin, necə deyərlər, mahiyyətini göstərir. Yəni, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar. Cəmiyyətdə də, siyasətdə də, ailədə də hər şey ədalətli olmalıdır və sosial ədalət prinsipləri həmişə bizim üçün vacib olub".

Son bir neçə il ərzində dörd sosial paketin həyata keçirildiyini vurğulayan Prezident, həmçinin qeyd edib: *"İqtisadi imkanlar artdıqca biz daim sosial məsələlərin həllinə - minimum əməkhaqqı, pensiya, sosial müavinətlərin artırılması məsələlərinə də daim diqqət göstərəcəyik".*

## "COP-A ÜZV OLAN TƏRƏF KİMİ AVROPA KOMİSSİYASININ BAKI KONFRANSINDA İŞTİRAK ETMƏMƏSİ ÇOXSAYLI SUALLAR DOĞURUR"

"Bildiyimə görə, bu (COP29), Avropa Komissiyasının Prezidentinin iştirak etmədiyi ilk COP oldu. Halbuki onun iştirakı bir neçə ay əvvəl artıq təsdiq edilmişdi".

Bunu Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib. COP29-un təşkilat komitəsinin Avropa Komissiyası ilə təmas qurduğunu və qarşı tərəfə Bakıya səfər etmək üçün kifayət qədər vaxtın olduğunu bildirdiyini söyləyən dövlətimizin başçısı diqqətə çatdırıb: *"Ancaq yenə də bu mesaja Avropa Komissiyası tərəfindən əhəmiyyət verilmədi. Əlbəttə bu, COP29-un keçirilməsinə xələl gətirmədi, ancaq COP-a üzv olan tərəf kimi Avropa Komissiyasının iştirak etməməsi çoxsaylı suallar doğurur".*

## "AZƏRBAYCANIN D-8-Ə QƏBUL EDİLMƏSİ ÖLKƏMİZİN NÜFUZUNU BİR DAHA GÖSTƏRİR"

Bunu Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində deyib. Otuz ilə yaxın bundan əvvəl yaranmış təşkilatın birinci genişlənmə qərarından sonra qəbul edilən ilk üzvün Azərbaycan olduğunu vurğulayan dövlətimizin başçısı deyib ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda, beynəlxalq aləmdə rolumuzu göstərir. Prezident, həmçinin qeyd edib: *"Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, bizim üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir".*

## "ZƏNGƏZUR DƏHLİZİ AÇILMALIDIR VƏ AÇILACAQDIR"

"Amerikada da Soros dövrü başa çatıb. Bayden administrasiyası, əslində, Soros idarə üsulu ilə idarə olunurdu". Bu barədə Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirib.

Sorosçuların faktiki olaraq mövqelərini itirdiklərini vurğulayan dövlətimizin başçısı deyib ki, Ermənistan rəhbərliyi bunu nəzərə almalıdır. *"Nəzərə alsın ki, Yaxın Şərqdə onların yaxın müttəfiqi Əsəd diktaturası artıq tarixin zibilliyinə göndərilib və bu, davam edəcək, ona görə düzgün addım atsın. Biz Azərbaycan olaraq onlar üçün təhlükə mənbəyi deyilik. Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır"*, - deyə Prezident əlavə edib.

## "ÜMİD EDİRİK Kİ, BU İL BİZ AÇG-DƏ "DƏRİN QAZ" LAYİHƏSİNDƏN İLK QAZI ALACAĞIQ"

"Ümid edirik ki, bu il biz AÇG-də "Dərin Qaz" layihəsindən ilk qazı alacağıq və bu, bütövlükdə qaz hasilatına gözəçarpan töhfə olacaq".

Bu sözləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində söyləyib. *"Bununla belə, "Şahdəniz"in hələ də əsas qazı təchiz edən yataq kimi qalacağını nəzərə alsaq, biz "Abşeron"da qaz hasilatının 1,5-dən 5 milyard kubmetrə qədər artırılması məqsədilə tərəfdaşlarla çalışmağı planlaşdırırıq"*, - deyən dövlətimizin başçısı əlavə edib ki, bununla yanaşı, "Qarabağ", "Babək", "Asiman" və digər yataqlar kimi çox perspektivli layihələr var. Bu, potensialımızı artıracaq.



## AZƏRBAYCAN PREZİDENTİ YAXIN ŞƏRQDƏKİ PROSESLƏRLƏ BAĞLI FİKİRLƏRİNİ BÖLÜŞÜB

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Yaxın Şərqdəki proseslərlə bağlı fikirlərini bölüşüb.

Dövlətimizin başçısı bildirib:

***"Biz çox şadıq ki, Suriyada dəyişikliklər baş verdi və bu münasibətlə Türkiyə ilə Suriyanın yeni hökuməti arasında mövcud olan əlaqələr, əlbəttə ki, bizi də çox sevindirir. Çünki Suriya Türkiyə ilə həmsərhəd olan ölkədir və hər bir ölkə öz sərhədlərinin kənarında vəziyyəti sabit görmək istəyir".*** Prezident vurğulayıb ki, Türkiyənin bütün digər sərhədlərində də terrorçuluğa yer olmamalıdır. ***"Biz də Türkiyənin müttəfiqi kimi hər zaman istənilən formada onların yanındayıq və bunu Türkiyə tərəfi bilir",*** *- deyə dövlətimizin* başçısı əlavə edib. Azərbaycan Prezidenti, eyni zamanda, İsrail-Fələstin məsələsində də mövqeyimizin dəyişməz olaraq qaldığını söyləyib.

## "AMERİKA-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİ STRATEJİ SƏVİYYƏYƏ QALDIRA BİLƏRİK"

"Əgər hər iki tərəf maraqlı olsa, biz Amerika-Azərbaycan əlaqələrini strateji səviyyəyə qaldıra bilərik".

Bu fikri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirib.

Trampın öz açıqlamaları ilə çox aydın, açıq mesajlar göndərdiyini vurğulayan Azərbaycan Prezidenti əlavə edib: ***"Onların böyük əksəriyyətini Azərbaycan ictimaiyyəti bölüşür. Yəni, ona görə ümidlər böyükdür. Ona görə mən dedim ki, ümidlər var, ümidlər böyükdür. O cümlədən Amerika-Azərbaycan strateji əlaqələrinə yaxınlaşmaq da mümkün olacaq".***

# Ölkədə "istinad faizləri" son 11 ayın minimumuna düşüb

Azərbaycanda istinad faizi kimi götürülən banklar arasında təminatsız kredit faizləri 2024-cü ilin fevralından bu tərəfə minimum səviyyəyə düşüb.

Banker.az tərəfindən aparılan monitorinqə görə, günlük təminatsız kreditlər (1D AZIR) ötən gün bağlanan əqddə 6.48 faiz olub. Banklar arasında 4 əqd bağlanıb və həcmi 71 mln. manat olub.

Gündəlik əsasda hesablanan AZIR indeksi sonuncu dəfə bu həddə 2024-cü ilin 14 fevralında olmuşdu, belə ki həmin göstərici 5.75 faizə düşüb.

AZİR Azərbaycanda banklararası bazarda təminatsız kreditlər üzrə orta faiz dərəcəsini əks etdirən bir göstəricidir. Bu indeks banklar arasında təminatsız (yəni girovsuz) kreditlərin maliyyələşdirilməsi üzrə faiz dərəcələrinin dinamikasını izləmək üçün istifadə olunur. İndekslərin hesablanmasında Blumberq ticarət platformasında Azərbaycanda fəaliyyət göstərən kommersiya bankları arasında milli valyutada müxtəlif müddətlər üzrə bağlanan əqdlərdən istifadə edilir.

İndeks bank sektorunun likvidliyinin vəziyyətini qiymətləndirmək üçün də vacibdir və Mərkəzi Bank 2022-ci ildən faizləri işə salması yolunda bu indekslə bağlı faizlə bağlı press-relizlərəinə də daxil edib. Sonuncu 18 dekabr iclasında Mərkəzi Bank bildirmişdi ki, noyabr ayında və dekabrın ötən dövründə 1D AZIR indeksi "faiz dəhlizinin daxilində" formalaşıb.

Xatırladaq ki, Mərkəzi Bank 02.05.2024 tarixindən etibarən faiz dəhlizinin aşağı həddini 6.25%, yuxarı həddi 8.25%, əsas olan uçot faiz dərəcəsini isə 7.25% müəyyən edib. Həmin tarixdən bəri faizlərə toxunmayıb.

Qeyd edək ki, AZIR indeksi 5 dekabrda 7.91 faizə qədər artmışdı ki, bu da indiyə qədər olan maksimum idi.

Bakı Fond Birjasında qiymətli kağızların girov qoyulması ilə götürülən 1 günlük Banklararası kredit faizləri isə sonuncu dəfə dekabrda 7.7 faiz təşkil edib.

## "ƏGƏR PİLOTLAR PEŞƏKARLIQ, QƏHRƏMANLIQ GÖSTƏRMƏSƏYDİLƏR, BU QƏZADA SAĞ QALAN OLMAZDI"



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 6-da "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşündə deyib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, dekabrın 25-də Bakı-Qroznı marşrutu ilə uçan AZAL-a məxsus sərnişin təyyarəsi Qroznı şəhərinin yaxınlığında kənar müdaxilə nəticəsində idarəetməni itirib, zədələnib və demək olar ki, idarəolunmaz vəziyyətə salınıb. Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. Pilotların və bütün ekipaj üzvlərinin fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Mənim Sərəncamımla ekipaj üzvləri ilə vida mərasimindən sonra ekipajın üç üzvü - iki pilot və bir bələdçi "Milli Qəhrəman" adına layiq görülüb, iki bələdçi isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

Dövlət başçısı deyib: ***"Bildiyiniz kimi, Dövlət Komissiyası yaradılıb, komissiya fəaliyyət göstərir. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan prokurorluğu cinayət işi açıb. Cinayət işinin ilkin araşdırması dediyim versiyanı bir daha təsdiqləyir. Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Günahsız insanlar həlak olublar.***

***Ekipaj üzvlərinin qəhrəmanlığı haqqında mən vida mərasimi zamanı bildirmişdim. Bir daha demək istəyirəm, bu, doğrudan da böyük fədakarlıqdır.***

***"Qara qutu"ların açılması prosesi başlanmışdır. Bizim təkidimizlə bu proses Braziliyada həyata keçirilir.***

***Mən hələ ki, cinayət işinin bütün materiallarını açıqlamaq istəmirəm, onun ilkin təhqiqatı və nəticələri mənə məruzə edilib. Amma əminliklə deyə bilərəm ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya Federasiyası nümayəndələrinin üzərindədir. Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, tam şəffaflıq və insani davranış tələb edirik".***

# Azərbaycanın üç gəmisi heyətlə birgə girov götürülüb

Dövlət Dəniz və Liman Agentliyi (DDLA) Azərbaycana məxsus 3 gəminin heyəti ilə birlikdə Afrikada, Eritreya sahillərində girov götürülməsi məsələsi ilə bağlı açıqlama yayıb.

Agentliyin mətbuat katibi Pərvanə İmanova açıqlamasında bildirib ki, 2024-cü ilin 7 noyabr tarixində "Caspian Marine Services B.V." şirkətinin Azərbaycandakı filialı tərəfindən sözügedən şirkətə məxsus 3 gəminin Eritreya dövlətinin səlahiyyətli qurumları tərəfindən saxlanılması barədə DDLA-ya məlumat daxil olub: "Dərhal Agentlik tərəfindən Xarici İşlər Nazirliyinə işçi qaydada məlumat verilib. Bununla yanaşı, Agentlik tərəfindən Eritreya Dövlətinin dəniz nəqliyyatı sahəsi üzrə səlahiyyətli qurumuna, habelə Beynəlxalq Dəniz Təşkilatına (BDT), Eritreyanın BDT-dəki daimi nümayəndəliyinə və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinə rəsmi məktubla müvafiq məlumatlar təqdim edilib".

# Davranış modelləri əsasında kreditləşməyə dair prudensial tənzimlənmə çərçivəsi qəbul edilib

Bank sektorunun sabit və təhlükəsiz fəaliyyətinin təşkili, tənzimlənməsi və nəzarəti, habelə müasir trendlər nəzərə alınmaqla daim inkişaf etdirilməsi Azərbaycan Mərkəzi Bankının (AMB) əsas prioritet istiqamətlərindən biridir. Bu xüsusda, Mərkəzi Bank bank sektorunun prudensial tənzimləmə çərçivəsinin yeni texnologiyaların sürətli inkişafı fonunda maliyyə sistemində yaranan meyillərə uyğun təkmilləşdirilməsi istiqamətində təşəbbüslər həyata keçirir.

AMB-dən bildirilib ki, müasir dövrdə banklarda proseslərin avtomatlaşdırılması, müştəri yönümlü olması, süni intellekt həllərinin tətbiqi nəticəsində proqnozlaşdırılan məlumatların dəqiqliyinin daha da artımı ənənəvi bank xidmətlərinin alternativ kanallarla daha aşağı xərc və yüksək sürətlə təklif edilməsi imkanlarını artırır. Davranış modelləri üzrə qəbul edilmiş yeni prudensial tənzimlənmə çərçivəsi də bu imkanlardan istifadə edərək fərdi sahibkarlara və fiziki şəxslərə banklar tərəfindən onların proqnozlaşdırılan gəlirləri əsasında kredit verilişini təmin edəcək. Qəbul edilmiş dəyişikliklərdə davranış modelinin hazırlanması prosesinə, bankda bu sahədə potensialın artırılmasına, modelin validasiyasına və hesabatlığına dair tələblər, habelə davranış modeli əsasında verilmiş kreditlər üzrə risklərin azaldılması məqsədilə limitlər, daha sərt təsnifləşdirmə tələbləri və artırılmış kapital tələbləri müəyyən edilib. Belə ki, banklar məcmu miqdarı bankın kredit portfelinin 10 faizdən artıq olmamaq şərti ilə davranış modelləri əsasında kredit verilişini həyata keçirə biləcək. Bununla belə, davranış model əsasında verilmiş və 90 gündən çox gecikdirilmiş kreditlərin həcmi həmin kredit portfelinin 10 faizinə çatdıqda model əsasında kreditlərin verilməsi dayandırılacaq.

Bütövlükdə, kreditləşmə prosesində davranış modellərindən istifadə müştərilərin bank kreditlərinə əlçatanlığının artırılmasına xidmət edəcəkdir. Bu isə, öz növbəsində kiçik və orta sahibkarlığın maliyyə və məşğulluq imkanlarının genişlənməsinə, eləcə də resursların daha məhsuldar bölgüsünə köməklik edəcək.

# "SOCAR Türkiyə" fəaliyyətinin illik yekunları barədə mətbuata açıqlama verib




İstanbulda "SOCAR Türkiyə"-nin illik fəaliyyətinin nəticələrinə dair mətbuat konfransı keçirilib.

Tədbirdə "SOCAR Türkiyə"nin baş icraçı direktoru Elçin İbadov və şirkətin emal və neft-kimya biznes vahidinin rəhbəri Kənan Mirzəyev ilin yekunlarına dair mətbuata açıqlama veriblər.

Baş icraçı direktor Elçin İbadov şirkətin fəaliyyət mərhələləri haqqında danışıb. Bildirilib ki, SOCAR 2008-ci ildə "Petkim"in səhmlərinin 51 faizini Türkiyə Respublikasının Özəlləşdirmə İdarəsindən 2 milyard 40 milyon ABŞ dollarına satın alaraq bu ölkədə fəaliyyətə başlayıb. Türkiyənin ən böyük xarici investoru olan SOCAR Türkiyəyə 17 il ərzində ümumilikdə 18,5 milyard ABŞ dolları məbləğində sərmayə qoyub.

İnvestisiyalar arasında STAR Neft Emalı Zavodu (6,7 milyard ABŞ dolları), TANAP (6,31 milyard dollar), "Petkim"in satın alınması (2,04 milyard dollar), liman əməliyyatları (420 milyon dollar), daşınmaz əmlak investisiyaları (232 milyon ABŞ dolları), təbii qaz şirkətlərinin alınması (180 milyon dollar), saxlanc fəaliyyəti (110 milyon dollar), Fiber (55 milyon dollar) yer alıb. "SOCAR Türkiyə"nin qrup şirkətlərinə edilən investisiyaların məbləği isə 2,445 milyon ABŞ dolları təşkil edib.

# Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları artırılıb

Prezident İlham Əliyev dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən aşağıda göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılır: Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı, Gəncə bölməsinin Aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycanda Atatürk Mərkəzi, Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Aparatı, Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi -Metodiki və İxtisasartırma Mərkəzi, Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu, Mədəniyyət Nazirliyinin tabeliyində Quba şəhərində "Soyqırımı memorial kompleksi", Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Aparatı, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıqlar.

# "SOCAR Türkiyə"nin əməliyyatlarında 10 mindən artıq insan çalışır"

Türkiyənin ən böyük inteqrasiya olunmuş sənaye qrupu "SOCAR Türkiyə" eyni zamanda Əliağadakı bütün törəmə müəssisələrini əhatə edən ərazisi üçün Türkiyədə "Xüsusi Sənaye Zonası" adını alan ilk şirkət olub. Burada fəaliyyət göstərən işçilərin sayı təxminən 5 min 600 nəfərdir. Podratçı şirkətlərin işçiləri də daxil olmaqla "SOCAR Türkiyə"nin əməliyyatlarında 10 min nəfərdən artıq insan çalışır. "SOCAR Türkiyə" TANAP-da 7 faiz paya sahibdir və şirkətin idarə olunmasında aktiv iştirak edir. Bu barədə "SOCAR Türkiyə"nin baş icraçı direktoru Elçin İbadov bildirib.

STAR Neft Emalı Zavodu (NEZ) haqqında danışan baş icraçı direktor 2018-ci ildə beynəlxalq mərasimlə fəaliyyətə başlayan bu qurumun emal və neft-kimya inteqrasiyasını təmin etdiyini və Türkiyədə bir sahəyə edilən ən böyük real sektor investisiyası olduğunu deyib. Bildirilib ki, STAR NEZ Türkiyənin ilk "Strateji İnvestisiya Təşviqi" Sertifikatına sahibdir və 2024-cü ilin sonundan etibarən qurum tərəfindən xam neftin emal həcmi ildə 13 milyon tona çatdırılıb. 2023-cü ildə istehsal gücündən istifadə əmsalı 117,1 faiz təşkil edən STAR NEZ-də dizel, nafta, aviasiya yanacağı və LPG kimi müxtəlif neft məhsulları istehsal edilir və 2023-cü ildə Türkiyənin emal olunmuş neft məhsullarına olan ehtiyacının təxminən 18 faizini qarşılayıb.

# Yüksək intellekt, tükənməz enerji sahibi



***Vahid Novruzov hər bir soydaşımıza örnək olası şərəfli bir ömür yaşayıb: müəllim adına ucalıq və şərəf gətirmiş mərhum Tapdıq kişi ilə Mehriban xanımın ailəsində boya-başa çatmış, valideynlərinin şəxsi nümunəsi və zəhmətsevərliyi həyat yollarında ona yol göstərən mayak olmuş, erkən yaşlarından qəlbində elmə, biliyə sonsuz həvəs oyatmışdır.***

Qərbi Azərbaycanın Loru mahalındakı kənd məktəbindən başlanan həyat yolu Vətənimizin paytaxtı Bakı şəhərində universitet, Moskva şəhərində G.V.Plexanov adına Xalq Təsərrüfatı İnstitutunda aspirantura təhsili ilə, həmin elm və təhsil ocağında 1978-ci ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyalarının müdafiəsi, daha sonra professor elmi rütbəsinə yetişməklə davam etmişdir.

20 il (1972-1992-ci illərdə) ərzində keçmiş Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, kiçik elmi işçi, bölmə müdiri və şöbə müdiri, 1979-1981-ci illərdə Əhaliyə Məişət Xidməti Nazirliyi yanında Layihə-Konstruktor Texnologiya İnstitutunda elmi işlər üzrə direktor müavini, 1992-1996-cı illərdə isə Azərbaycan Respublikası Milli Məclisi Aparatının Mülki hüquq və iqtisadi qanunvericilik şöbəsində bölmə müdiri, şöbə müdirinin birinci müavini və şöbə müdiri kimi bir-birindən məsul vəzifələrdə çalışarkən özünü yüksək dərəcədə səriştəli mütəxəssis və bacarıqlı təşkilatçı kimi tanıdan Vahid Novruzov respublikanın elmi-ictimai dairələrində haqlı olaraq böyük hörmət və nüfuz qazanmışdır.

1994-cü ildə Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmişdir.

Artıq 30 ildən çoxdur ki, V.Novruzov həyatını Azərbaycanda müstəqil və qərəzsiz maliyyə nəzarəti forması olan audit sisteminin formalaşması işinə həsr etmişdir. O, Ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış 1994-cü il 16 sentyabr tarixli «Auditor xidməti haqqında» Qanunun və milli audit qanunvericiliyimizin məhək daşı sayılan digər hüquqi-normativ aktların layihələrinin işlənib hazırlanmasında və qəbul olunmasında müstəsna dərəcədə böyük əmək sərf edərək, Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılıb fəaliyyətə başlamasında və hazırda ölkəmizin bazar infrastrukturları arasında layiqli yer tutmasında əvəzsiz rol oynamışdır.

Bu gün ölkədə auditor xidmətinin təşkili və tənzimlənməsi, auditor kadrların yetişdirilməsi, auditə dair elmi-kütləvi və metodik ədəbiyyatın yazılması və nəşr etdirilməsi, auditor peşəsinin müsbət imicinin formalaşdırılması və ictimai nüfuzunun artırılması Vahid müəllimin təşkilatçı-rəhbər və elmi-yaradıcı fəaliyyəti ilə sıx bağlıdır. Məhz Vahid müəllimin ardıcıl və məqsədyönlü səyləri sayəsində bu gün Auditorlar Palatasının fəaliyyəti, müstəqil auditor xidməti Azərbaycan cəmiyyətinin ayrı-ayrı zümrələri, ən əvvəl də dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yüksək qiymətləndirilir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və inkişafımızın müasir mərhələsində Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin fəal təbliğatçısı və tədqiqatçısı kimi V.Novruzovun səmərəli fəaliyyəti də alqışalayiqdir.

Onun təşəbbüsü və baş redaktorluğu ilə nəşr olunan, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəşrlər reyestrinə daxil edilmiş «İqtisadiyyat və audit» elmi-praktik jurnalı bu istiqamətdəki çoxşaxəli fəaliyyətinin bəhrəsidir.

Respublikanın tanınmış iqtisadçı alimlərindən olan professor Vahid Novruzov ümumiyyətlə son otuz il ərzindəki elmi fəaliyyətini bütünlüklə Heydər Əliyev siyasətinin, inkişaf və tərəqqimizin Heydər Əliyev modelinin ayrı-ayrı elementlərinin tədqiqinə həsr edən, bu mövzuda ardıcıl olaraq müxtəlif səviyyəli elmi məclislərdə və nəşrlərdə çıxışlar edən istedadlı tədqiqatçılarımızdandır. Onun hələ 1998-ci ildə bir qrup həmkarı ilə birgə yazıb nəşr etdirdiyi «Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı» monoqrafiyası özünün elmi siqlətinə görə ölkə ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilmiş, ölkədə gedən quruculuq işlərinin, aparılan radikal islahatların mahiyyətini anlamaq baxımından sanballı elmi mənbə rolunu oynamışdır.

***Professor V.Novruzovun 2004-cü ildə «Azərnəşr» tərəfindən çapdan buraxılmış «İnkişaf və tərəqqinin Heydər Əliyev modeli» adlı kitabı isə müəllifin son illər ərzində yazdığı, Rusiyada və Azərbaycanda çıxan müxtəlif profilli nəşrlərdə dərc etdirdiyi məqalələrin toplusu, mövzusu və müəllif qayəsi dəqiq müəyyən olunmuş bir kitabdır.***

1996-cı ilin aprel ayından Azərbaycan Respublikasının Auditiorlar Palatasına başçılıq edən V.Novruzovun rəhbərliyi və iştirakı ilə Azərbaycanda audit sisteminin inkişafına və tənzimlənməsinə dair bir sıra xüsusi ədəbiyyat, metodik göstəriş, tövsiyə və standartlar işlənib hazırlanmış və audit praktikasında tətbiq edilməkdədir.

V.Novruzovun rəhbərlik etdiyi redaksiya heyəti Beynəlxalq Mühasiblər Federasiyası ilə imzalanmış memoranduma əsasən beynəlxalq audit standartlarının və «Peşəkar Mühasiblərin Etika Məcəlləsi»nin Azərbaycan dilinə tərcüməsini həyata keçirmiş və bununla da 2010-cu il yanvarın 1-dən etibarən ölkəmizdə beynəlxalq audit standatrlarının tətbiqinə başlanmışdır.

Ölkə prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»na və «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»na uyğun olaraq, Azərbaycanda auditor xidmətinin gələcək inkişaf istiqamətlərinin müəyyən olunması, auditor xidməti bazarının genişləndirilməsi, dövlətin, təsərrüfat subyektlərinin və auditorların maraqlarının müdafiə edilməsi, audit sahəsində tənzimləyici fəaliyyətin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, auditin beynəlxalq standartların tələblərinə uyğun aparılmasının təmin edilməsi, habelə ölkənin iqtisadi həyatında auditin rolunun və əhəmiyyətinin daha da gücləndirilməsi, şəffaflığın təmin olunmasında və korrupsiyaya qarşı mübarizədə auditin rolunun və auditorların məsuliyyətinin artırılmasının təmin edilməsi məqsədilə, V.Novruzovun rəhbərliyi ilə yaradılmış redaksiya şurası tərəfindən "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020-ci illər)" işlənib hazırlanmış və konsepsiyada nəzərdə tutulmuş işlər icra olunmuşdur.

Bütövlükdə V.Novruzov 180-dən artıq elmi əsərin və 5 monoqrafiyanın müəllifidir, 2000-ci ildə Azərbaycan Republikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə ona professor elmi adı verilmişdir. O, uzun illər AAK-nın iqtisad və hüquq elmləri üzrə Ekspert Şurasının üzvü və sədri olmuş, eyni zamanda bir neçə ali məktəbdə elmi müdafiə şuralarının üzvüdür. Professor V.Novruzov audit və bazar iqtisadiyyatı infrastrukturunun aktual problemlərinə dair 30-dan çox dissertasiya işinin elmi rəhbəri olmuş, onlarca dissertasiyanın müdafiəsində opponent və rəyçi qismində çıxış etmişdir. Bundan başqa, V.Novruzov yerli və xarici jurnalların ("Vergi xəbərləri", "Biznes həyatı", "Finansist", "Vestnik buxqalteriya" və s.) redaksiya heyətinin üzvü kimi də səmərəli fəaliyyət göstərir.

***Professor Vahid Novruzov Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli sərəncamı ilə ölkədə auditor xidmətinin inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.***

***2018-ci ildə Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan Bölməsinin həqiqi üzvü seçilmişdir. 2019-cu ildə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının rəyasət heyətinin üzvü seçilmişdir.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 6 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında auditor xidməti sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.***

***2020-ci ilin 29 sentyabr tarixində Ağsaqqallar şurasının sədr müavini seçilmişdir.***

***2020-ci ilin sentyabr ayında Gürcüstan Mühasiblər, Auditorlar və Məsləhətçilər Cəmiyyətinin fəxri üzvü seçilmişdir.***

***2022-ci ilin 18 iyun tarixində Elm və təhsil sahəsində müstəsna xidmətlərinə görə Beynəlxalq Elmlər Akademiyasının "Qızıl döş nişanı" ilə təltif edilib. Eyni zamanda BEA AB-nin İdarə Heyətinin üzvü seçilib.***

***2023-cü il 30 yanvar tarixində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "AHİK-30 il" yubiley döş nişanı ilə təltif edilmişdir.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 02 fevral tarixli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmuşdur.***

***Vahid müəllim 1996-cı il aprelin 5-dən indiyə kimi Azərbaycan Respublikası Auditorlar Palatasının sədri vəzifəsində işləyir.***

Azərbaycan auditorları möhtərəm Prezidentimiz cənab İlham Əliyevin proqram xarakterli göstərişlərini rəhbər tutaraq, müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək istiqamətində beynəlxalq əlaqələrin gücləndirilməsinə xüsusi önəm verirlər. Azərbaycan Respublikasının Auditorlar Palatası da beynəlxalq əlaqələrin qurulması üzrə fəaliyyətinə - beynəlxalq və regional peşə qurumlarında təmsilçiliyə, ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə də məhz mütərəqqi xarici audit təcrübəsinin öyrənilməsi, milli kadrlara çatdırılması və yerli xüsusiyyətlər nəzərə alınmaqla, ölkədə tətbiq edilməsi baxımından yanaşır. Bu mənada, V.Novruzovun rəhbərlik etdiyi nümayəndə heyətinin bir çox xarici ölkələrdə (Vyana, İstanbul, Kiyev, Berlin, Brüssel, Sinqapur və s.) təşkil edilmiş mötəbər beynəlxalq tədbirlərdə iştirakı və səmərəli çıxışları həm qabaqcıl dünya təcrübəsinin öyrənilməsi, həm də Azərbaycanın dünya birliyinə tanıdılması məqsədlərinə xidmət edir.

Hazırda Palatanın nüfuzlu peşə qurumlarında - Beynəlxalq Mühasiblər Federasiyasında (IFAC), Mühasiblərin və Auditorların "Avrasiya" Beynəlxalq Regional Federasiyasında, Avropa Mühasiblər və Auditorlar Federasiyasında (EFAA), Sertifikatlı Mühasiblərin və Auditorların Avrasiya Şurasında tamhüquqlu üzv sifətilə təmsilçiliyi, habelə Rusiya Federasiyası, Çin, Böyük Britaniya, Fransa, Kanada, Türkiyə, Rumıniya, Macarıstan, Polşa, Slovakiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Litva, Latviya, Moldova, Belarusiya, Makedoniya, Monteneqro və digər ölkələrin audit və mühasibatlıq qurumları ilə əməkdaşlıq barədə saziş və niyyət protokollarının imzalanması, intensiv işgüzar əlaqələrin qurulması Azərbaycan auditorlarının peşə-ixtisas səviyyəsinin müntəzəm olaraq təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Auditorlar Palatası bir çox beynəlxalq audit qurumları, o cümlədən 1941-ci ildə daxili audit sahəsində ilk peşə birliyi kimi qurulmuş və hazırda peşənin dünyada şəksiz lideri sayılan beynəlxalq Daxili Auditorlar İnstitutu (ABŞ) ilə bu istiqamətdə məqsədyönlü iş aparır. Həmin işin ilkin nəticəsi olaraq, Daxili Auditorlar İnstitutu İdarəetmə Şurasının Kvebek (Kanada) şəhərində keçirilən 1999-cu il 26 iyun tarixli iclasında Azərbaycan Respublikası Auditorlar Palatasının müraciəti əsasında respublikamızda IIA-nın «Audit-Azərbaycan» bölməsinin yaradılması haqda qərar qəbul edilmişdir. Həmin institutun Azərbaycandakı bölməsinin prezidenti kimi V.Novruzov ölkəmizdə daxili auditin inkişafı istiqamətində də xeyli işlər həyata keçirir. Həm də xoşagələn cəhət budur ki, həmin işlər təkcə respublikamızda deyil, xaricdə - beynəlxalq miqyaslı tədbirlərdə də təqdir edilir, nümunə göstərilir.

V.Novruzovun rəhbərliyi altında Auditorlar Palatası yerli qurumlarla da səmərəli əməkdaşlıq edir və həmin qurumlarla birgə konfrans, seminar, simpozium, "dəyirmi masa" və digər tədbirlər həyata keçirir. Elə ilin əvvəlində - 2024-cü il yanvarın 13-də Azərbaycan Respublikasının Auditorlar Palatası, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası və Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin birgə təşkilatçılığı ilə"Hesabatlılıq və şəffaflıq yeni dövrün çağırışları kontekstində" mövzusunda Forum keçirildi.

Ötən il sentyabrın 16-da dahi şəxsiyyət Heydər Əliyev tərəfindən "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun imzalanmasının 30 illiyi münasibətilə Auditorlar Palatasının təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat zəminində hesabatlılıq və şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmiş, konfransda 12 ölkəni (Azərbaycan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Özbəkistan, Pakistan, Rusiya, Türkiyə) təmsil edən 30 qurumdan 150-yə yaxın nümayəndə iştirak edib.

V.Novruzov həm də gözəl ailə başçısıdır. O, keçdiyi şərəfli ömür yolunda ailədə daim xoş münasibət və diqqət görmüşdür. Vahid müəllimin ailəyə olan sevgi və məhəbbəti gələcək nəsillərə nümunədir.

V.Novruzovun ictimai xadim və alim kimi malik olduğu hörmət-izzət, əldə etdiyi nailiyyətlər onun insani keyfiyyətləri ilə bilavasitə bağlıdır. Son dərəcə mehriban, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran insan və eyni zamanda, tələbkar rəhbər, heç kimdən köməyini əsirgəməyən qayğıkeş və sədaqətli dost olan Vahid müəllimi doğum günü münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, həyatda ən şirin nemət olan cansağlığı, gələcək işlərində uğurlar diləyirik!

**Akademik Ziyad Səmədzadə,**
**AMEA-nın müxbir üzvü, professor Qorxmaz İmanov,**
**professor Arif Hüseynov**

# Daşkəsəndə aztəminatlı ailələrə bayram sovqatı təqdim edilib




"AzerGold" QSC tərəfindən 31 Dekabr – Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Daşkəsən rayonunda növbəti sosial yardım aksiyası keçirilib.

Aksiya çərçivəsində Daşkəsən şəhəri, rayonun ucqar Çovdar, Quşçu kəndi, eyniadlı qəsəbə, eləcə də "Şadax" adlandırılan yaşayış məskəni üzrə aztəminatlı ailələr ziyarət edilib. Vətəndaşlara Səhmdar Cəmiyyətinin adından bayram təbrikləri çatdırılıb, müxtəlif ərzaq məhsullarından ibarət sovqatlar təqdim edilib.

Qeyd edək ki, "AzerGold" QSC-nin Sosial Təsir və Məsuliyyət üzrə siyasəti çərçivəsində mütəmadi icra edilən bu tip aksiyalar sosial-iqtisadi yönümlü dövlət proqramlarına dəstək xarakteri daşıyır. QSC-nin hasilat və istehsalat fəaliyyəti göstərdiyi bölgədə yaşayan vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi məqsədi ilə onların sosial rifahının gücləndirilməsi istiqamətində davamlı olaraq müxtəlif layihələr həyata keçirilir.

# "AzerGold" QSC azyaşlıları bayram sovqatı ilə sevindirib



Ölkənin aparıcı dağ-mədən şirkəti olan "AzerGold" QSC Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində daha bir xeyriyyə təşəbbüsünü həyata keçirib.

Səhmdar Cəmiyyəti və Daşkəsən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Daşkəsən rayonunun bütün kənd və qəsəbələrini əhatə edən bayram aksiyası təşkil edilib.

Aksiya çərçivəsində ilk növbədə Vətən müharibəsi şəhidləri, müharibə əlili və aztəminatlı ailələrin azyaşlı övladlarına "AzerGold" QSC-nin təşəbbüsü ilə uşaqların dağ-mədən sahəsi üzrə müxtəlif peşələrə marağının artırılması məqsədilə nəşr edilmiş "Qızıl axtarışında" adlı nağıl kitabı, müxtəlif növ şirniyyat və oyuncaqlardan ibarət boğçalar Şaxta baba obrazı tərəfindən təqdim edilib. Məqsəd azyaşlıları bayram sovqatları ilə sevindirmək, onlara xoş əhval-ruhiyyə bəxş etməkdir.

Qeyd edək ki, sözügedən aksiya "AzerGold" QSC-nin Sosial Təsir və Məsuliyyət üzrə siyasəti çərçivəsində həyata keçirilib. Səhmdar Cəmiyyətinin əsas fəaliyyət zonası olan Gəncə-Daşkəsən iqtisadi rayonunda icra edilən sosial təşəbbüslər çərçivəsində bu tip aksiyaların təşkili gələcəkdə də davam etdiriləcək.

*Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Bakı Dövlət Universitetinin üzvi kimya kafedrasının müdiri, akademik Abel Məhərrəmovun 75 yaşı tamam olur. Bu münasibətlə Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvləri Abel müəllimə təbrik ünvanlayıblar. Təbrikdə deyilir:*

*Hörmətli Abel müəllim!*



Sizi – xalqımızın görkəmli alimini, müdrik ağsaqqalı və nüfuzlu ziyalımızı 75 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə uca Allahdan uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanımızın inkişafı istiqamətində həyata keçirdiyiniz bütün işlərdə, ictimai-siyasi və elmi fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq!

Şərəf və vicdanla yaşadığınız ömrünüzün müdriklik zirvəsində olan alicənab bir şəxsiyyət kimi Siz çoxşaxəli elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətiniz, yüksək idarəçilik qabiliyyətiniz və prinsipiallığınız, eləcə də sadəliyiniz, təvazökarlığınız və qayğıkeşliyinizlə hər zaman seçilmisiniz.

Tanınmış alim, vətənpərvər ictimai-siyasi xadim, dəyərli ziyalı olaraq daim xalqımıza, dövlətimizə böyük xidmətlər göstərmiş, Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sarsılmaz sadiqlik nümayiş etdirmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu və qətiyyətli siyasətini hər zaman dəstəkləyərək ölkəmizin tərəqqisinə, elm və təhsilin inkişafına layiqli töhfələr vermisiniz. Sizin rəhbərliyiniz ilə Bakı Dövlət Universiteti yeni inkişaf mərhələsinə qədəm qoymuş, təhsilin keyfiyyəti xeyli yüksəlmişdir. Minlərlə gəncin ali təhsil almasında, bilik və bacarıqlara yiyələnməsində, Azərbaycanın sabahı üçün layiqli mütəxəssislər və nümunəvi vətəndaşlar olaraq yetişməsində böyük rol oynamısınız.

Milli Məclisin deputatı olaraq səmərəli parlament fəaliyyətinizlə bu ali qanunverici orqanın işində yaxından iştirak edərək bir çox əhəmiyyətli məsələlərə dair, eləcə də elm və təhsil sahəsində önəmli qanunların müzakirəsində və qəbul olunmasında xüsusi fəallıq və əzmkarlıq nümayiş etdirmisiniz.

*Müxtəlif vəzifələrdəki uğurlu elmi, pedaqoji və ictimai-siyasi fəaliyyətiniz Azərbaycanda və respublikamızdan kənarda yüksək dəyərləndirilmişdir. Siz "Şöhrət" və 2-ci dərəcəli "Əmək" ordenlərinə, "Əməkdar elm xadimi" fəxri adına, "Yusif Məmmədəliyev adına medal"a, Türkiyə Respublikasının Qırıqqala Universitetinin Fəxri doktoru adına, Rumıniyanın Komandor dərəcəli ali "Qızıl ulduz" ordeninə, İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) "Qızıl medal"ına və çox sayda digər nüfuzlu mükafatlara, fəxri adlara layiq görülmüsünüz.*

Hazırda Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini olaraq Siz müdrik bir ağsaqqal kimi təşkilatın fəaliyyətində yaxından iştirak edir, gənclərimizin maarifləndirilməsinə, elmə və təhsilə həvəslərinin artırılmasına, onların vətənpərvərlik və milli adət-ənənələrə, azərbaycançılıq məfkurəsinə bağlılıq ruhunda tərbiyəsi işinə dəyərli töhfələr verir, bu yüksək amal uğrunda öz bilik və bacarığınızı əsirgəmirsiniz. Siz həm də yüksək intellektli, nəcib və vətənpərvər ziyalı övladlar yetişdirən qayğıkeş valideyn və gözəl ailə başçısısınız.

**Hörmətli Abel müəllim!**

**Bu xoş fürsətdən istifadə edərək bir daha Sizi əlamətdar yubileyiniz münasibətilə Azərbaycan Ağsaqqallar Şurasının çoxsaylı üzvləri adından ürəkdən təbrik edir, Sizə Vətənimizin tərəqqisi naminə dəyərli fəaliyyətinizdə tükənməz nailiyyətlər diləyirik!**

*Dərin hörmət və səmimiyyətlə,*

**Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvləri adından Şuranın sədri, millət vəkili, professor Eldar QULİYEV**

# Banklara kontr-tsiklik kapital buferi təyin edilib

Kontr-tsiklik buferin aktivləşdirilməsi qərarı müvafiq qaydalara uyğun olaraq əsasən kredit "gap"i göstəricisinin 2 faizi üstələməsi nəzərə alınaraq qəbul olunub.

Bu barədə Mərkəzi Bankdan bildirilib. Qeyd olunub ki, əlavə olaraq, bank sektorunda müşahidə edilən yüksək kreditləşmə dinamikası, bankların mənfəətliliyi və maliyyə dayanıqlılığı göstəriciləri də buferin tətbiqini şərtləndirən amillər sırasındadır.

2024-cü ilin noyabr ayının sonuna olan məlumatlara əsasən, kredit portfelinin illik artımı 19,6 faiz təşkil edib ki, bu da nominal qeyri-neft-qaz ÜDM-in artımını 2 dəfəyədək üstələyir. Fəaliyyətdə olan 22 bankın 19-da kredit portfeli artıb, o cümlədən 14-də isə kredit portfelinin illik artımı nominal qeyri-neft-qaz ÜDM-in artımını üstələyib.

Müvafiq qaydalara əsasən, kontr-tsiklik buferin aktivləşdirilməsi üçün əsas göstərici kimi cəmi kredit portfelinin ÜDM-ə nisbətinin uzunmüddətli trendi və cari göstəricisi arasındakı fərq (kredit "gap"i) istifadə olunur. Son qiymətləndirmələrə görə, bu göstərici 2,9 faiz təşkil edərək, kontr-tsiklik buferin aktivləşdirilməsini aktuallaşdırıb.

Bank sektorunun yüksək mənfəətliyi və kapitallaşma səviyyəsi də kontr-tsiklik buferin tətbiqini dəstəkləyən amillər kimi çıxış edib. Cari ilin 11 ayında banklar 966 milyon manat xalis mənfəət əldə edib, sektorun kapital rentabelliyi (ROE) göstəricisi isə 18,4 faiz təşkil edib. Dövr ərzində sektorun məcmu kapitalının həcmi 6 milyard manatı ötüb, məcmu kapital adekvatlılığı isə 17,5 faiz olub. Bu şəraitdə banklar ötən il ərzində 456 milyon manat, cari ildə isə 610 milyon manat dividend ödənişi həyata keçirib.

Kontr-tsiklik buferin aktivləşdirilməsi Bazel Komitəsinin tövsiyələrinə uyğun olaraq bank sektorunun dayanıqlılığını artırmaq və maliyyə sabitliyini dəstəkləmək məqsədi daşıyır. Bu makro-prudensial alətin tətbiqi bank sektorunun mümkün şoklara qarşı dayanıqlılığını artırmaqla yanaşı, onun kreditləşmə fəaliyyətinin fasiləsizliyinə imkan verəcəkdir.

Hesablamalara əsasən, kontr-tsiklik buferin tətbiqindən sonra sektorun risk üzrə ölçülmüş potensial aktivlərinin həcmi 18.7 milyard manat səviyyəsində qiymətləndirilir. Bu onu göstərir ki, yeni qərardan sonra da bank sektorunun kredit portfelinin əhəmiyyətli genişlənmə potensialı qalır. Həmçinin buferin iki aydan sonra tətbiqinə başlanması onun növbəti dövrlərdə banklarda strateji planlaşdırma və büdcə proseslərində, habelə kapitallaşma və dividend siyasətlərində nəzərə alınmasına imkan yaradır.

# Ötən il Qarabağ və Şərqi Zəngəzurda 550 milyon kilovat-saatadək yaşıl enerji istehsal edilib

Ötən il Qarabağ və Şərqi Zəngəzurdakı 32 su elektrik stansiyasında "AzərEnerji" ASC tərəfindən 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz yaşıl enerji istehsal olunub.

ASC-dən bildirilib ki, həmin 550 milyon kilovat-saat enerjinin üçdə biri, yəni 200 milyon kilovat-saata yaxını işğaldan azad edilən ərazilərin enerji tələbatını ödəyib, qalan üçdə iki hissəsi isə respublika enerji sisteminə ötürülərək ölkənin digər yerlərinin tələbatına yönləndirilib. Nəticədə 120 milyon kubmetr təbii qaza qənaət edilib, 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.



Qeyd edək ki, təkcə 2024-cü il ərzində Qarabağ və Şərqi Zəngəzurda ölkə rəhbərliyinin iştirakı ilə 7 su elektrik stansiyasının açılışı olub. Belə ki, Kəlbəcər rayonunda son dörd ildə "AzərEnerji" tərəfindən işğaldan azad edilən ərazilərdə tikilən ən böyük su elektrik stansiyası - 22,5 meqavatlıq "Yuxarı Vəng", 4,3 meqavatlıq "Zar", Laçın rayonunda 2,8 meqavatlıq "Zabux", 4,6 meqavatlıq "Qarıqışlaq", Zəngilan rayonunda isə hər birinin gücü 10,5 meqavat olmaqla "Şayıflı", "Zəngilan" və "Sarıqışlaq" su elektrik stansiyaları istismara verilib.

# Naxçıvanın büdcə xərclərinin 50%-dən çoxu yerli gəlirlərlə icra olunub

Ötən il Naxçıvan Muxtar Respublikasının yerli büdcə gəlirləri 250 milyon manatdan artıq olub ki, bu da büdcə xərclərinin 50%-dən çoxunu icra etməyə imkan verib.



Bu barədə Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov yerli KİV-ə müsahibəsində bildirib.

O, 2024-cü ili həm Naxçıvan Muxtar Respublikasında aparılan sosial-iqtisadi islahatlar, həm də həyata keçirilən büdcə və maliyyə siyasəti istiqamətində kifayət qədər uğurlu bir il hesab etdiyini söyləyib:

"2024-cü ildə Naxçıvan Muxtar Respublikasının yerli büdcə gəlirləri 250 milyon manatdan artıq olub ki, bu da büdcə xərclərinin 50%-dən çoxunu icra etməyə imkan verib.

Büdcənin xərclərinin icrasında dotasiyanın payı əhəmiyyətli dərəcədə aşağı salınıb. Biz bunu, eyni zamanda, növbəti büdcənin tərtibində də nəzərdə tutmuşuq. Ötən müddət ərzində Muxtar Respublikanın büdcəsinin tərtibində xərclərin optimallaşdırılması, gəlirlərin artırılması üçün əhəmiyyətli və təqdirəlayiq addımlar atılıb".

*"2024-cü ilin sonlarında cənab Prezidentin sərəncamları ilə həm ölkədə minimum əməkhaqqının artırılması, həm yaşayış meyarının artırılması növbəti ildə (2025-ci ildə - red.) əhalinin rifah halının da yüksəldilməsinə əhəmiyyətli dərəcədə inanmağa imkan verir.*

*Artıq Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmuş vahid tarif cədvəli ilə maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqqının artırılması, eyni zamanda, növbəti il (2025-ci il – red.) Muxtar Respublikada həyata keçiriləcək iqtisadi investisiya proqramlarının icrası bizə 2025-ci ilin büdcəsinin də kifayət qədər uğurlu keçəcəyini deməyə əsas verir"*, - deyə nazir vurğulayıb.

# 75 faiz vergi güzəşti hansı sahibkarlara şamil edilir?

Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsində edilmiş mühüm dəyişikliklərdən biri bəzi xidmət sahələri üzrə mikro sahibkarların gəlirlərinə 75 faiz vergi güzəştinin müvafiq tələblərlə şərtləndirilmədən tətbiqi ilə bağlıdır.

Dövlət Vergi Xidmətindən bildirilib ki, Vergi Məcəlləsinə 2024-cü ildən qüvvəyə minmiş dəyişikliyə əsasən, müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkar fiziki şəxslərin sahibkarlıq fəaliyyətindən gəlirinin 75 faizi gəlir vergisindən azad edilib. Lakin aparılmış təhlillər nəticəsində bir sıra fiziki şəxslərin əhaliyə deyil, digər vergiödəyicilərinə xidmət göstərdikləri, buna görə də sadələşdirilmiş verginin ödəyicisi ola bilmədikləri müəyyənləşdirilib.

Bu səbəbdən bəzi xidmət sahələri üzrə fəaliyyət göstərən və illik dövriyyəsinin həcmi xərclər nəzərə alınmadan 45 min manatadək olan mikro sahibkar fiziki şəxslərə münasibətdə gəlirlərinin 75 faizinin hər hansı şərt tətbiq edilmədən gəlir vergisindən azad olunması ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər edilib.

Həmin fəaliyyətlərə proqram təminatının işlənməsi, layihədizayn və dekorasiya, tərcümə, reklam xidmətləri, araşdırma və tədqiqat sahəsində fəaliyyət, elm, təhsil, mədəniyyət və idman sahəsində göstərilən xidmətlər, hüquq, sərbəst auditor, mühasibat və maliyyə sahələri üzrə məsləhət xidmətləri, jurnalistika, bazar konyukturunun öyrənilməsi, qiymətləndirmə fəaliyyəti, avtonəqliyyat vasitələri ilə yükdaşımaları istisna olmaqla, sifarişlərin çatdırılması və kuryer fəaliyyəti, həmçinin turizm bələdçisi kimi xidmətlər aiddir.

# Qazaxıstan Azərbaycandan qeyri-neft məhsulları idxalını 30% artırıb

Ötən ilin yanvar-noyabr aylarında Azərbaycandan Qazaxıstana 116,9 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Bu barədə Trend Dövlət Gömrük Komitəsindən məlumat əldə edib. Məlumata görə, bu göstərici 2023-cü ilin eyni dövrü ilə müqayisədə 27,1 milyon ABŞ dolları və ya 30,1% çoxdur.

Dövr ərzində Qazaxıstana qeyri-neft məhsullarının ixracı Azərbaycanın ümumi ixracının 3,78%-ni təşkil edib.

Qeyd edək ki, ötən ilin ilk 11 ayında Azərbaycandan ən çox qeyri-neft məhsulları Rusiyaya ixrac olunub. Belə ki, dövr ərzində bu ölkə Azərbaycandan 1,1 milyard ABŞ dolları dəyərində qeyri-neft məhsulları idxal edib. Bu, Azərbaycanın ümumi ixracına nisbətən 34,55%-i həcminə bərabər olub.



# TANAP ilə nəql edilən qazın ümumi həcmi açıqlanıb

***"31 dekabr 2024-cü il tarixinə TANAP ilə nəql edilən qazın ümumi həcmi 73,54 milyard kubmetrdir".***

Bunu SOCAR Türkiyə Baş icraçı direktoru Elçin İbadov SOCAR Türkiyə və qrup şirkətlərinə dair hesabat xarakterli mətbuat konfransında deyib.

TANAP Azərbaycandan İtaliyaya qədər uzanan 3500 kilometrlik Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans Adriatik Boru Kəməri (TAP) ilə birlikdə Cənub Qaz Dəhlizinin ən mühüm hissəsidir. "31 dekabr 2024-cü il tarixinə TANAP ilə nəql edilən qazın ümumi həcmi 73,54 milyard kubmetrdir. Türkiyə üçün nəql edilən kommersiya qazının ümumi həcmi: 30,80 milyard kubmetr, Avropa üçün nəql edilən kommersiya qazının ümumi həcmi isə 42,74 milyard kubmetr", - o bildirib.

E.İbadov qeyd edib ki, TANAP Avropa və Türkiyənin təbii qaz ehtiyatlarının müxtəlifliyinin artırılması ilə yanaşı, Türkiyəni enerji dəhlizinə çevirmək istiqamətində bu günə qədər atılmış ən strateji addımlardan biridir.

# О геноциде белорусского народа в годы Великой Отечественной войны (материал Национальной Академии наук Беларуси)

*(начало в предыдущем номере)*

**На захваченной территории БССР фашисты установили так называемый «новый порядок» – жестокий колониальный режим беззакония, насилия, грабежа и кровавого террора.** Оккупационный режим преследовал следующие цели: полное порабощение и ограбление белорусского народа, зверское истребление населения. Этот режим осуществлялся созданной гитлеровцами администрацией, специальными службами СД (служба безопасности), СС (охранные отряды), гестапо (государственная тайная полиция), военнослужащими охранных и регулярных войск.

С целью эффективного осуществления своих преступных планов и ликвидации национальной государственности оккупанты расчленили территорию Беларуси и ввели административное деление, которое включало тыловой район группы армий «Центр» или так называемую «область армейского тыла». Сюда входили территория Витебской, Могилёвской, большей части Гомельской, восточные районы Минской и некоторые Полесской областей. Южные районы Гомельской и Брестской, почти полностью Полесская и большинство районов Пинской областей вместе с административными центрами Мозырь, Пинск, Брест были присоединены к рейхкомиссариату «Украина» и были распределены между генеральными округами «Волынь-Подолье» и «Житомир». Граница проходила в 20 км на север от железной дороги Брест – Гомель. Белостокскую и северную часть Брестской оккупанты включили в состав провинции Восточная Пруссия (округ «Белосток»). Северо-западные районы Вилейской области были отнесены до генерального округам «Литва». Оставшаяся после такого расчленения территория была названа генеральным округом «Беларусь» и разделена на 10 округов (гебитов).

**На оккупированной территории немецкие захватчики проводили заранее спланированное ограбление белорусского народа.**

Для этого были учреждены такие организации, как Центральное торговое общество Восток (ЦТО), должности всевозможных фюреров, уполномоченных, инспекторов и других «специалистов» по экономике. Расхищение и ограбление материальных ценностей гитлеровцы сопровождали варварскими разрушениями. Оккупанты превратили города и сёла Беларуси в груды развалин. **Они сожгли, разрушили и разграбили на территории республики 209 городов и районных центров, уничтожили 10 338 предприятий, что составило 85 процентов довоенных заводов и фабрик, ограбили и разорили более 10 тыс. колхозов, 92 совхоза и 316 машинно-тракторных станций. Вывезли в Германию 90% станочного и технического оборудования.**

С варварской жестокостью нацисты уничтожали культурные и научные ценности белорусского народа. Они разрушили Академию наук БССР, Белорусский государственный университет и все другие высшие учебные заведения, научно-исследовательские институты, 7 тыс. школьных зданий, 2187 больниц и амбулаторий, 2567 детских садов и яслей, 219 библиотек.

Целью оккупационной политики нацистов было планомерное уничтожение населения. В соответствии с планом «Ост» на Беларуси




предусматривалось уничтожить или выселить на восток, непригодного с точки зрения гитлеровцев с учетом так называемых расовых и политических оценок. **25% подлежали онемечиванию и использованию в качестве сельскохозяйственных рабов**. Например, в Минске германское командование планировало поселить 50 тыс. немцев и оставить для использования в качестве рабочей силы 100 тыс. местных жителей, в Гомеле – соответственно 30 и 50 тыс. чел., Могилёве и Бобруйске м – соответственно 20 и 50 тыс. чел., Витебске – соответственно 20 и 40 тыс. чел.

С целью массового уничтожения были применены массовые расстрелы, уничтожение в концлагерях, гетто, истязания в тюрьмах, убийство различными болезнями, использование заложничества со следующим наказанием, сожжение населённых пунктов с жителями при проведении карательных операций, смерть от голода и холода.

На оккупированной территории Беларуси нацисты создали более 260 лагерей смерти. Жестоко расправлялись оккупанты с советскими военнопленными, к числу которых германское командование приказало относить «всех, кто встречается в непосредственной близости от мест военных действий… всех трудоспособных мужчин в возрасте 16-55 лет». Издевательства над военнопленными были дикими и изощрёнными.

Их морили голодом, содержали в нечеловеческих условиях, использовали на самых грязных и изнурительных работах. Малейшее промедление при выполнении приказаний грозило расстрелом.

**Среди крупнейших лагерей смерти и гибели гражданского населения и военнопленных были:**

В Минске и окрестностях было 9 лагерей, в которых уничтожено более 400 тыс. чел.: лагерь смерти Тростенец (уничтожено более 206,5 тыс. чел.; лагерь вблизи деревни Масюковщина (более 80 тыс. чел.); лагерь на ул. Широкая (20 тыс. чел.);

Минская область: в шести лагерях смерти Борисова уничтожено более 33 тыс. чел.; Молодечно (36 тыс. 150 чел.); Слуцк (10 тыс. человек).

Брестская область: в четырёх лагерях Бреста уничтожено 34 тыс. чел.; Пинск – 4 лагеря (59 тыс. 48 чел.); Бронная Гара (более 30 тыс. чел.); Лесная (88 тыс. 407 чел); Колдычево (более 22 тыс. чел.)

Витебская область: в Витебске и окрестностях в пяти лагерях смерти погибло 76 тыс. военнопленных и около 62 тыс. мирных жителей; в Глубоком и окрестностях в трёх лагерях уничтожено более 37 тыс. чел.; в Полоцке было 3 лагеря, в которых погибли 157 тыс. чел.; в Орше в трёх лагерях уничтожено более 20 тыс. чел.

Гомельская область: в Гомеле было 5 лагерей (уничтожено более за 105 тыс. чел); в трёх лагерях Азаричи уничтожено 16 тыс. 520 чел.

Гродненщина: в Гродно и окрестностях было 5 лагерей (уничтожено 41 тыс. 500 чел., в том числе в лагере смерти Колбасино 18 тыс.чел.); в 3-х лагерях Волковыска уничтожено более 30 тыс. чел; в 3-х лагерях Лиды уничтожено более 17 тыс. чел.; в 2-х лагерях Новогрудка уничтожено 28 тыс. чел. Могилёвская область: в Могилёве в 5-ти лагерях было замучено более 70 тыс. чел.; в том числе в лагере Луполова – более 40 тыс. чел.; в 4-х лагерях Бобруйска и его окрестностях уничтожено 84 тыс. чел.; в 3-х лагерях Кричева уничтожено более 18 тыс. чел.

**Неотъемлемой частью немецко-фашистского оккупационного режима, наиболее радикальным средством утверждения и поддержки «нового порядка», реализации преступных планов германского командования стали карательные операции. За 1941–1944 г. оккупанты провели на территории Беларуси более 140 крупных карательных операций**. Они осуществлялись военными, охранными, полицейскими и специальными подразделениями оккупантов. Именно во время крупных карательных экспедиций было сожжено абсолютное большинство сёл и деревень Беларуси. За период 1941– 1944 гг. захватчики уничтожили около 9200 сёл и деревень республики, из них 5295 разделили судьбу Хатыни, т.е были уничтожены вместе со всем или частью населения. Из сожжённых деревень 186 так и не возродились. По Витебской и Минской областях некоторые населённые пункты сжигались по несколько раз.

**(продолжение в следующем номере)**

# ТАР заключил контракт на проверку готовности инфраструктуры к транспортировке водорода

Консорциум Трансадриатического трубопровода (TAP AG) заключил контракт с Penspen на предоставление услуг по анализу разрывов в инфраструктуре, с целью оценки готовности трубопровода к интеграции водорода, передает Trend со ссылкой на Penspen.

«Инженерная команда Penspen из Великобритании проведет всесторонний анализ данных и полевую оценку наземных объектов TAP (AGI), линейных задвижек (BV) и компрессорных станций (CS). Это исследование оценит возможность внедрения водородных смесей в существующую газовую инфраструктуру, поддерживая стратегию TAP по расширению мощности для новых объемов водорода и других возобновляемых газов, чтобы способствовать долгосрочной устойчивости и декарбонизации в регионе», — заявили в компании. Сообщается, что Penspen окажет поддержку TAP в обеспечении безопасного и устойчивого смешивания водорода, сохраняя безопасность и надежность существующей газотранспортной инфраструктуры TAP в Европе.

# Назван объем «зеленой энергии», произведенной в Карабахе и Восточном Зангезуре

В 2024 году в Карабахе и Восточном Зангезуре было произведено 550 миллионов киловатт-час «зеленой энергии».

Об этом в понедельник Trend сообщили в ОАО «Азерэнержи».

За 12 месяцев 2024 года «Азерэнержи» произвело до 550 миллионов киловатт-часов экологически чистой «зеленой энергии» на 32 гидроэлектростанциях в Карабахе и Восточном Зангезуре. Треть из этих 550 миллионов киловатт-часов, то есть около 200 миллионов киловатт-часов, удовлетворяла потребности освобожденных от оккупации территорий, а оставшиеся две трети были переданы в республиканскую энергосистему и направлены на нужды других частей страны. В результате было сэкономлено 120 миллионов кубометров природного газа, предотвращен выброс 225 тысяч тонн углекислого газа в атмосферу.

# Установлены три ветряные турбины для ВЭС ACWA Power в Азербайджане

На Хызы-Абшеронской ветроэлектростанции, строительство которой осуществляет компания ACWA Power, успешно установлены три ветряные турбины, сообщили Trend в компании. «Общее количество турбин на электростанции составит 37: 12 в Абшероне и 25 в Хызы. Каждая турбина обладает мощностью 6,5 МВт, что в общей сложности обеспечит проекту суммарную мощность 240 МВт», — отметили в ACWA Power. Турбины оснащены 100-метровыми башнями и лопастями длиной 84 метра, что гарантирует высокую эффективность выработки электроэнергии.

«Три турбины уже установлены в Абшеронском районе (Гобустан), где завершены все фундаменты для оставшихся 12 турбин. В Хызы ведутся активные строительные и раскопочные работы», — добавили в компании.

Проект позволит ежегодно производить около 900 ГВт·ч экологически чистой энергии и сократить выбросы углекислого газа примерно на 400 000 тонн. Общий объем инвестиций в проект оценивается в 340 миллионов долларов. Электростанция будет расположена в двух зонах: первой — в Абшеронском районе, и второй — Хызы 3 в Хызинском районе.

# В городе Дашкесан состоялась очередная встреча с гражданами




28 декабря в городе Дашкесан состоялась встреча Комитета по корпоративной социальной ответственности ЗАО "AzerGold» с гражданами посвященная итогам года.

На встрече присутствовали глава исполнительной власти Дашкесанского района Орхан Аббасов, член правления-заместитель председателя ЗАО "AzerGold", председатель комитета КСО Хайям Фарзалиев и член правления – заместитель председателя ЗАО "AzerGold", председатель комитета КСО ООО "Daşkəsən Dəmir Filiz" Ильгар Джалилов.

Встреча, в которой приняли участие жители города Дашкесан, сел Гушчу, Човдар и других сел района, началась с глубокой скорби в память о погибших в результате крушения пассажирского самолета, принадлежащего Закрытому Акционерному Обществу "Азербайджанские Авиалинии". На мероприятии отчетного характера была представлена информация о социальных и экологических проектах, реализованных в течение 2024 года и планируемых к реализации в 2025 году в рамках партнерства ЗАО "AzerGold" и ООО «Daşkəsən Dəmir Filiz» и исполнительной власти Дашкесанского района. Было отмечено, что в течение 2024 года Обществом было реализовано ряд успешных проектов таких как "Поддержка развития картофельного хозяйства в Дашкесанском районе", Охрана и реинтродукция в природу редких и исчезающих растений, попавших в "Красную книгу", "Чистый Дашкесан", "Книжный киоск", создание музейной экспозиции "Сокровища" и др. С целью внесения дополнительного вклада в государственную политику по укреплению социального благополучия в регионе было организовано 7 социальных акций. Было доведено до сведения участников встречи, что и в наступающем 2025 году на основе принципа социальной ответственности будут реализованы проекты по образованию, здравоохранению, инклюзивному развитию, инфраструктурным проектам, развитию сельского хозяйства, окружающей среде и другим направлениям.

Затем были заслушаны обращения граждан, обсуждены новые инициативы.

На встрече также были зарегистрированы вопросы, поднятые гражданами для изучения и решения в рамках действующего законодательства.

В завершение 31 декабря по случаю Дня солидарности азербайджанцев мира и празднования Нового года участникам встречи были вручены праздничные подарки.

# ABŞ bankı dollar/TL proqnozunu dəyişib

BofA 2025-ci il üzrə dollar/TL proqnozunu azaldıb. Bank ilin sonu üçün dollar/TL proqnozunu 44-dən 41-ə dəyişib.
ABŞ bankı "Bank of America" (BofA) 2025-ci ilin sonuna ABŞ dolları/Türk Lirəsi proqnozunu aşağı salıb.
BofA-nın dərc etdiyi son hesabatda ilin sonuna dollar/TL proqnozu 44-dən 41-ə azaldılıb. BofA-nın proqnozu doğru çıxarsa, bu, dolların daha 16 faiz bahalaşması deməkdir.
BofA Türkiyə Mərkəzi Bankının faiz dərəcələrini azaltmağa



davam etməsi lazım olduğunu və yanvar ayında daha 2,50 faiz bəndi azalma gözlədiklərini qeyd edib. BofA il ərzində 7 dəfə 2,50 bənd azalma ilə pul siyasəti faizinin ilin sonunda 30 faizə enəcəyini proqnozlaşdırır.
2024-cü ilin son iclasında Türkiyə Mərkəzi Bankı uçot dərəcəsini 2,5 bənd azaldaraq 47,5 faizə endirib.
BofA, ***"Minimum əməkhaqqı artımı gözləntilərin aşağı hissəsində olduğundan, 25 faizlik inflyasiya proqnozumuza qarşı məhdud yuxarı risk görürük. İnflyasiya daha aşağı səviyyələrə düşə bilər"***, - qeyd edib.

# Dünyanın mərkəzi bankları ötən ilin noyabrında 53,4 ton qızıl alıb

Ötən ilin noyabr ayında dünyanın mərkəzi bankları qızıl-valyuta ehtiyatlarında qızılın həcmini 53,4 ton artırıblar.
AZƏRTAC xəbər verir ki, bu barədə məlumat "World Gold Council" təşkilatının hesablamalarında öz əksini tapıb.
"2024-cü ilin sonlarında dünyanın mərkəzi bankları qızıl tələbatında aparıcı rol oynamağa davam ediblər. Bu, il ərzində müşahidə olunan tendensiyanın davamıdır. Qlobal iqtisadi qeyri-müəyyənlik şəraitində sabit və etibarlı aktiv tapmağa çalışan inkişaf etməkdə olan ölkələrin mərkəzi bankları bu istiqamətdə daha fəaldırlar", - deyə təşkilatın analitikləri bildiriblər.

# Ərdoğan beynəlxalq ictimaiyyəti Suriyanın yenidən qurulmasında iştirak etməyə çağırıb

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan beynəlxalq ictimaiyyəti Suriyanın yenidən qurulmasında fəal iştirak etməyə çağırıb.
Bu barədə Rəcəb Tayyib Ərdoğan Ankarada qubernatorlarla görüşü zamanı deyib.
"Bu ölkəyə (Suriyaya) 13 il ərzində dəymiş ziyan 500 milyard dolları ötüb. Suriyaya səfər edən komandalarımız yerdəki mənzərənin gözlənildiyindən qat-qat pis olduğunu bildirir. Suriyada onun infrastrukturunu kompleks şəkildə bərpa etmək lazımdır. Beynəlxalq ictimaiyyət bu prosesə mühüm töhfə verməlidir", - deyə Türkiyə prezidenti bildirib.
R.T.Ərdoğan həmçinin ölkəsinin Suriyanın yeni hakimiyyət orqanlarına hər cür dəstəyi verməyə hazır olduğunu və onunla mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək niyyətini açıqlayıb.

# Fitch: ABŞ 2025-ci ildə bir çox maliyyə siyasəti problemləri ilə üzləşəcək

Qlobal reytinq agentliyi Fitch ABŞ-nin 2025-ci ildə bir çox maliyyə siyasəti problemləri ilə üzləşəcəyini nəzərdə tutur.
Fitch-in yaydığı məlumatda ABŞ-nin bu il borc limiti, ödəmələr və vergilərin azaldılması ilə bağlı əhəmiyyətli maliyyə siyasəti problemləri ilə üzləşəcəyi, bu çətinliklərin artıq böyük kəsirlər və artan borc yükləri mühitində ortaya çıxacağı qeyd edilib.
Məlumatda vurğulanıb ki, federal hökumətin büdcə prosesində uzun müddətdir mövcud olan zəifliklər və Nümayəndələr Palatasındakı respublikaçıların məhdud çoxluğu səbəbindən bunların tez bir zamanda həll olunmayacağına inanılır.
Borc limitini dayandıran son tənzimləmənin bu ilin əvvəlində başa çatdığı qeyd edilən açıqlamada 36,1 trilyon dollarlıq yeni borc limitinin 14-23 yanvar tarixləri arasında məcburi olacağını təxmin edildiyi bildirilib.
Açıqlamada dekabr ayında qüvvəyə minən müvəqqəti büdcə layihəsində hökumətə 14 mart tarixinə qədər maliyyə təmin ediləcəyi, 2017-ci ildə qüvvəyə minən vergi endirimlərinin isə 2025-ci ilin sonunda başa çatacağı bildirilib.
Açıqlamada əvvəlki hadisələrə əsaslanaraq borc limitinin yenidən artırılacağı və ya dayandırılacağı ehtimal edildiyi, lakin borc limitinin artırılması və ya dayandırılması ilə bağlı müzakirələrin 2025-ci ilin əvvəlində həll olunmayacağının gözlənildiyi qeyd edilib. Konqresdə xərcləmə siyasətləri ilə bağlı əhəmiyyətli fikir ayrılıqları davam edir.
Məlumatda, həmçinin, 2025 və 2026-cı illərdə ABŞ-nin büdcə kəsirinin Ümumi Daxili Məhsulun (ÜDM) 7,5 faizini keçəcəyi təxmin edildiyi bildirilib.




# Avropa Komissiyası - Aİ-nin qaz təchizatında heç bir problemi yoxdur



Avropa İttifaqı qaz təchizatı və anbarlardakı ehtiyatlarla bağlı problem yaşamır.
Bu barədə Avropa Komissiyasının rəsmi nümayəndəsi Anna-Kaysa İtkonen Brüsseldə keçirilən brifinqdə 31 dekabr 2024-cü ildə Ukraynanın Rusiya qazının Aİ-yə tranzitinin dayandırılması ilə bağlı sualları cavablandırarkən deyib.
"Mən bunu artıq demişəm və bir daha təkrar edirəm: üzv dövlətlərin qaz təchizatında heç bir problem yoxdur", - deyə mətbuat katibi bildirib.
İtkonen təsdiqləyib ki, hazırda Avropa anbarlarında qaz ehtiyatlarının səviyyəsi 70 faiz təşkil edir. Bu, 2024-cü ilin eyni dövründən aşağıdır, lakin 2022-ci ilə qədər orta ehtiyat səviyyələrindən yüksəkdir. AK nümayəndəsi ötən illə fərqi xüsusilə qaza tələbatın artması ilə izah edib.

# DÖVLƏT GÖMRÜK KOMİTƏSİ TİBBİ XİDMƏT İDARƏSİNİN 2024-CÜ İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ HESABAT İCLASI KEÇİRİLİB

28 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin ilin yekunlarına həsr olunmuş hesabat iclası keçirilib. İclasda Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin, Mərkəzi Gömrük Hospitalının, Elmi-Təcrübi və Tədris Mərkəzinin, Sanitar-Karantin Xidmətinin və Həkim-Tibb Komissiyasının əməkdaşları iştirak ediblər.
Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov iclas iştirakçılarını salamlayaraq cari il ərzində Xidmət tərəfindən görülmüş işlər və həyata keçirilən fəaliyyətləri yüksək qiymətləndirib. İdarə rəisi Mərkəzi Gömrük Hospitalının istifadəyə verilməsi nəzərdə tutulan yeni korpusunun açılışına hazırlıq, 2025-ci il üçün hədəflərdən söz açaraq, göstərilən tibbi xidmətlərin daha da təkmilləşdirilməsi üçün öz tövsiyələrini verib.
Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev hesabat nitqi ilə çıxış edərək il ərzində gömrük əməkdaşlarına və əhaliyə göstərilən tibbi xidmətlərin sayının artdığını, pasiyent yönümlü fəaliyyətlərin təşkili istiqamətində mütəmadi tədbirlərin həyata keçirildiyini, İcbari Tibbi Sığorta Agentliyi və özəl tibbi sığorta şirkətləri ilə əməkdaşlığın genişləndirildiyini və Hospitalın cari il ərzində bir neçə yeni müasir tibbi avadanlıqlarla təchiz edildiyini vurğulayıb. Həmçinin, Bəxtiyar Musayev



2024-cü ilin noyabr ayında Bakı şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası tədbirində fəal iştirak edərək cənab Prezident İlham Əliyev tərəfindən Mərkəzi Gömrük Hospitalının 5 əməkdaşının təşəkkürnamələr ilə təltif edilməsini qeyd edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.
Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Fərid Əbilov 2024-cü ilin yekunlarına dair maliyyə göstəriciləri və 2025-ci il üçün nəzərdə tutulmuş maliyyə proqnozu, Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım Sanitar-Karantin Xidməti tərəfindən həyata keçirilmiş fəaliyyətlər, Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov tərəfindən ETTM-in cari il ərzində həyata keçirdiyi tədbirlər, sosial aksiyalar, beynəlxalq konfranslar və seminarlar, Tibbi Xidmət İdarəsi İlk Həmkarlar İttifaqı Komitəsinin sədri Şəhla Mirzəzadə isə əməkdaşların sosial rifahı və asudə vaxtının səmərəli təşkili istiqamətində keçirilmiş fəaliyyətlər haqqında hesabat nitqi ilə çıxış ediblər.
İdarə rəisi Ceyhun Məmmədov iclasın sonunda əməkdaşlara 2024-cü il ərzində göstərdikləri uğurlu xidmətlərə görə təşəkkür edərək, 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və Yeni il bayramı münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb. Hesabat iclası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsi tərəfindən 2024-cü il ərzində görülmüş işlərin xülasəsini əks etdirən fotokollajın nümayişi ilə yekunlaşıb.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Tramp Kanadanın ABŞ-yə birləşdiyi yeni xəritə dərc edib

ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp Kanadanın ABŞ-yə qoşulacağı təqdirdə ölkənin necə görünəcəyini göstərən xəritə dərc edib.
ABŞ-nin gələcək lideri həmin xəritəni öz "Truth" səhifəsində dərc edib.
Onun dərc etdiyi xəritədə Kanada və ABŞ eyni rəngə boyanaraq üzərinə Amerika Birləşmiş Ştatları yazılıb.
Qeyd edək ki, bundan əvvəl Tramp bir çox kanadalının öz ölkəsinin ABŞ-nin 51-ci ştatı olmasını müdafiə etdiyini demişdi.
O, hesab edir ki, belə birləşmə Kanadaya təkcə iqtisadi sabitlik gətirməyəcək, həm də onu Rusiya və Çin gəmilərindən gələn xarici təh-



lükələrdən qoruyacaq.
Kanadanın Baş naziri Castin Trüdo isə ölkənin ABŞ-nin bir hissəsi olması üçün ən kiçik bir şansın olmadığını deyib.

# "Ağıllı hüceyrələr" gələcəkdə müxtəlif xəstəliklərin müalicəsində mühüm rol oynayacaq

***Biomühəndislər insan hüceyrələrində xüsusi hiss və cavab sxemlərinin qurulması üçün innovativ bir tikinti dəsti hazırlayıblar. "Science" jurnalında dərc olunan bu araşdırma autoimmun xəstəliklər və xərçəng kimi kompleks sağlamlıq problemlərinin müalicəsində inqilabi dəyişikliklərə yol aça bilər.***
AZƏRTAC "Science Daily" saytına istinadla xəbər verir ki, yeni dizayn yanaşması fosforlaşma prosesinə əsaslanır. Fosforlaşma hüceyrələrdə zülala fosfat qrupunun əlavə olunması ilə ətraf mühitə reaksiya verən təbii prosesdir. Bu proses hüceyrədənkənar siqnalları hüceyrədaxili reaksiyalara çevirməkdə əsas rol oynayır. Tədqiqatçılar bu təbii mexanizmin terapevtik məqsədlərlə manipulyasiyası üçün yeni bir yanaşma təqdim ediblər. İş fosforlaşma prosesini əsas vahidlərə ayıraraq onları müxtəlif yollarla yenidən birləşdirməyi



mümkün edib.
Tədqiqatın aparıcı müəllifi dr. Xiaoyu Yang bu yanaşmanı belə təsvir edir: ***"Bu iş bizi xəstəlikləri aşkarlayan və fərdiləşdirilmiş müalicələri dərhal təmin edə bilən "ağıllı hüceyrələrin" yaradılmasına bir addım daha yaxınlaşdırır. Yeni yanaşma bir neçə mühüm üstünlük təqdim edir: Fosforlaşma prosesi saniyələr və ya dəqiqələr ərzində baş verir ki, bu da hüceyrələrin fizioloji hadisələrə tez cavab verməsini təmin edir. Əvvəlki sintetik sxemlər transkripsiya kimi daha yavaş proseslərə əsaslandığı üçün cavab müddəti uzun olurdu. Yeni sxemlər zəif siqnalları gücləndirərək makroskopik reaksiyalar yaradır, beləliklə terapevtik tətbiqlər üçün daha effektiv həllər təqdim edir. Yeni dizayn strategiyası hüceyrələrin təbii funksiyalarına zərər vermədən işləyə bilir. Tədqiqat qrupu yeni dizaynı sınaqdan keçirərək iltihab və digər xarici siqnallara cavab verən hüceyrə dövrələri hazırlayıb. Bu sxemlərin autoimmun alovlanmaların idarə olunması və immunoterapiya ilə bağlı toksikliyi azaltmaq üçün istifadə edilə biləcəyi göstərilib".***
Bu tapıntılar sintetik biologiyada terapevtik yanaşmaları təkmilləşdirmək üçün yeni yollar açır və "ağıllı hüceyrələrin" gələcəkdə müxtəlif xəstəliklərin müalicəsində mühüm rol oynaya biləcəyini göstərir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500